**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AVROPA MƏDƏNİYYƏTİNİN AZƏRBAYCANLILARIN MƏİŞƏTİNƏ TƏSİRİ (MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN MATERİALLARI ƏSASINDA)

İxtisas: 5102.01 – Etnoqrafiya və etnologiya

Elm sahəsi: Tarix

İddiaçı: **Qərənfil Mahir qızı Əsədova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya elmi-fond şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Tarix üzrə fəlsəfə doktoru, dosent
**Gülzadə Sərxan qızı Abdulova**

**Rəsmi opponentlər:** Tarix elmləri doktoru, professor
**Fəzayıl İmran oğlu Vəliyev**

Tarix üzrə fəlsəfə doktoru, dosent
**Şövqi Vaqif oğlu Həsənov**

Tarix üzrə fəlsəfə doktoru
**Şöhrət Mirzə oğlu İbadov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Tarix elmləri doktoru, professor

________________ **Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: Tarix elmləri doktoru, dosent

________________ **İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: Tarix elmləri doktoru,dosent

________________ **Solmaz Səttar qızı Məhərrəmova**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Tarixən müxtəlif sosial-iqtisadi inkişaf yolu keçmiş Avropa və Asiya xalqları minilliklər boyu yaradıb formalaşdırdıqları məişət və mədəniyyətə, onun spesifik-etnoqrafik xüsusiyyətlərinə görə bir-birindən köklü surətdə fərqlənmişlər. Mədəni təbəddülatları, adətən, mühafizəkarlıqla qarşılayan müsəlman Şərqi ilə, davamlı iqtisadi-texniki inkişafa can atan Avropanın qovşağında biçimlənən Azərbaycan mədəniyyəti ortaya çıxan qlobal mədəni dəyişiklikləri özünəməxsus şəkildə cilalayıb hər iki mədəni dəyərlərdən yaradıcı şəkildə bəhrələnərək zaman-zaman zənginləşmişdir. Mövzunun aktuallığını şərtləndirən əsas amillərdən biri məişət və mədəniyyət sahəsində bu qarşılıqlı-müştərək zənginləşmənin XIX-XX əsrin əvvəllərindəki durumunu araşdırmaq, Avropa mədəni inkişafının Azərbaycan məişət və mədəniyyətinə təsir imkanlarını müəyyənləşdirməkdən ibarətdir.

Tarixi qaynaqlardan aydın görünür ki, həm qədim dövrdə, həm də orta əsrlərdə Avropa ilə müqayisədə Şərq xalqları iqtisadi-siyasi və sosial-mədəni münasibətlərin inkişafı baxımından daha irəlidə olmuşlar. Orta əsrlərdə Səlib yürüşləri Şərq-Qərb münasibətlərini mütəmadiləşdirmiş, nəticədə Şərq mədəniyyəti Avropada yayılmış və onu inkişaf etdirmişdir.

Müasir dövrdə Qərb mədəniyyəti bəşərin qlobal mədəni münasibətlərinə ciddi təsir edir. Bunu şərtləndirən başlıca amillərdən biri Avropa mədəniyyəti üçün nailiyyət etalonu hesab olunan texnologiyanın yüksək və sürətli inkişafıdır. Şərq mədəniyyətinin dinamikliyi isə, əsasən, ənənəvi ideoloji bazis üzərində insan və onun mənəvi təkamülü yollarının axtarışında daha çox daxili təmayüllərlə xarakterizə edilə bilər. Beləliklə, *"əgər Qərbin inkişaf strategiyası yaşayış mühitinin dəyişdirilməsidirsə, Şərqin strategiyası insanın özünün dəyişdirməsidi"* [1]. Hazırda mədəniyyətlərin bir-birinə nüfuz etməsi qaçılmaz və zəruridir. Qərbin dinamizmi ilə Şərqin emosional

---

[1] İsrafilova, A. Şərq və Qərb mədəniyyəti anlayışına konseptual baxış: [Elektron resurs] / Multikulturalizm. - Bakı, 15.01.2020. Url: http://www.dqdk.gov.az/az/view/news/9315/sherq-ve-qerb-medeniyyeti-anlayishina-konseptual-baxish-

təməllərini paralelləşdirmək dövrün tələbinə çevrilmişdir. Odur ki, Şərqlə Qərbin ayrıcı olan etno-coğrafi və etno-mədəni məkanda qərarlaşan Azərbaycan xalqının həyat səviyyəsinin, gündəlik məişətinin Avropa mədəniyyətinin təsiri ilə müasirləşməsi problemini elmi baxımdan araşdırmaq mövzunun daha bir aktuallığını şərtləndirir. E.R.Volfun belə bir fikri ilə razılaşmaq olar ki: *"Tarixi zaman çərçivəsində mövcud olan sivilizasiyalar bir-birləri ilə əlaqələr saxlamışlar. Lakin bu əlaqələr bütövlükdə öyrənilməkdənsə, ayrı-ayrı elm sahələrinin (tarix, iqtisadiyyat, sosiologiya, politologiya) tədqiqat obyekti olduğundan tam olaraq bütün mahiyyəti etibarilə aşkara çıxarılmamışdır".* [2]

Avropa ölkələri ilə Azərbaycan arasında siyasi, iqtisadi və mədəni əlaqələr hələ qədim dövrlərdən mövcud olmuş, orta əsrlərdə isə bu münasibətlər iqtisadi- diplomatik əlaqələr səviyyəsində daha da genişlənmişdir. Lakin bu dövrdə, şübhəsiz ki, avropalıların yerli əhalinin məişətinə təsir edə biləcək qədər geniş imkanları olmamışdır. Bunun bir səbəbi burada mövcud mədəniyyətin yüksək inkişaf səviyyəsi və İslam qayda-qanunlarının cəmiyyətin həyatındakı aparıcı rolu ilə, digər əsas səbəbi isə güclü dövlətçilik ənənəsinin (Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri) olması ilə bağlı idi. Həmçinin Qərbdən gələn təsirdə kütləviliyin olmaması da xalq arasında bu mədəniyyətə marağın oyanmasına mane olan amillərdən idi.

XIX əsrdən etibarən sözügedən sosial-mədəni proses tamamilə fərqli şəkildə inkişaf etməyə başladı: Avropada baş verən inkişaf Şərqə sürətlə nüfuz edirdi. Sosial-siyasi, mədəni-iqtisadi baxımdan böhran keçirən Şərqdən fərqli olaraq, Avropa, dinamik əmtəə dövriyyəsi, elmi-texniki kəşfləri və s. yenilikləri sayəsində əksər regionları geridə qoyaraq, dünyanın əsas sivilizasiya mərkəzinə çevrilməyi bacardı. Bəhs olunan dövrdə Azərbaycanda çar Rusiyasının müstəmləkə rejimi qurulmuşdu. Maraqlıdır ki, Rusiyanın özü də Qərbdə baş verən müasirləşmə prosesinə gec qoşulmuşdu. Çar hökuməti cəmiyyətdə feodal qaydalarının kapitalizm istehsal üsulu ilə əvəz olunması zərurətini dərk edirdi və bu istiqamətdə XIX əsrin II yarısından etibarən islahatlar həyata keçirməyə başlamışdı.

[2] Volf, E. R. Europe and the People Without History / E. R.Volf. - Los Angeles University of California press, 1997. 503 p. s. 4

Azərbaycana da tətbiq edilən islahatlar müasirləşmə prosesini daha da sürətləndirdi. Beləliklə, orta əsrlərdən bəri sabitləşmiş düşüncə və həyat tərzi dəyişməli oldu. Coğrafi regionlar arasından mədəniyyət sərhədləri tədricən aradan qalxdı.

Azərbaycan məişət və mədəniyyətinə Avropanın təsiri prosesində neft amili mühüm rol oynamışdır. Avropalı sənayeçilər Azərbaycanda məskunlaşmaqla, zaman-zaman özlərinə məxsus məişət şəraiti qurmağa başladılar. Məsələn, "*Nobel qardaşları şirkətinin inzibati texniki heyətini Bakıda yaşamağa ruhlandırmaq üçün burada yaşayış qəsəbəsi salınmış, onlar üçün hər cür şərait yaradılmışdı*".[3] Təbii ki, bu kimi yeniliklər yerli əhalinin məişətinə tədricən nüfuz edir, ona təsir göstərir və zaman keçdikcə bu proses kütləvi hal alırdı. XIX əsrdə baş verən bu proseslərin – Avropanın Azərbaycan məişət və mədəniyyətinə mədəni-dəyişdirici təsir imkanlarının araşdırılmasında neft amilinin mühüm əhəmiyyət kəsb etməsini müəyyənləşdirmək də tədqiqat işinin aktual olmasını şərtləndirmişdir.

Avropalaşma prosesi XIX əsrin sonu – XX əsrin əvvəllərində milli ziyalıların ən çox diqqət yetirdiyi məsələlərdən olmuşdur. Bu dövrdə cəmiyyətdə sosial münasibətlərin humanist ideyalar əsasında qurulmasını arzulayan, təhsilin kütləviləşməsini və məcburi olmasını ardıcıl şəkildə dövlətdən tələb edən, qadın hüquqları, müasirləşmə mövzularını aktuallaşdıran maarifçi ziyalıların apardıqları mübarizə tədricən öz müsbət nəticəsini verirdi. Cəmiyyətdə müxtəlif sahələrə – kənd təsərrüfatı, sənaye, sənətkarlıq və digər istehsal sahələrinə texnoloji avadanlıqların cəlb olunması prosesinə H.Zərdabinin maarifləndirici məqalələrinin, xüsusilə "Əkinçi" qəzetinin verdiyi töhfələr az deyildi.[4]

Təəssüf doğuran hal isə budur ki, mədəniyyətlərin bir-birinə nüfuz etməsi o qədər sürətlə baş verirdi ki, bəzən qəbuledici tərəf seleksiya aparmaqda gecikir, proses onun nəzarətindən çıxırdı. Nəticə

---

[3] Məmmədli, N. Bakıda bir muzey var...: [ Elektron resurs] / Mədəniyyət – Bakı, 08.11.2019. Url: http://medeniyyet.az/page/news/50554/Bakida-bir-muzey-var.htmln

[4] Əkinçi. 1875-1877. Tam mətni / tərt. ed. T.Həsənzadə - Bakı: Avrasiya press, - 2005. – 496 s.

etibarilə, Qərbdən əxz edilməsi faydalı olan yeniliklərlə yanaşı, zahirən cəlbedici görünən, lakin ictimai və ailə məişətimizin mənəvi mühitinə yad olan elementlərin təsiri altında əsas hədəfdən uzaqlaşmalar da müşahidə olunurdu. Şübhə yoxdur ki, qaçılmaz olan belə halların yaratdığı əks-təsir xalqın mənəvi dayaqlar üzərində formalaşdırdığı adət-ənənələr sisteminə bir qədər bayağılıq gətirirdi. Bu cəhətdən mövzunun tədqiqi aktuallıq doğurur.

Multikulturalizm və tolerantlığın təbliğ olunduğu müasir dövrdə mədəniyyətlərin bir-birinə inteqrasiyası və ziddiyyət yaratmadan bərabər şəkildə yaşaması, şübhəsiz ki, təqdirəlayiqdir. Lakin zaman keçdikcə ənənəvi dəyərlərlə, əxz olunanı fərqləndirmək çətinləşir. Buradan aydın olur ki, bu mürəkkəb prosesin öyrənilməsi üçün tarixi dövrlərə konseptual yanaşmaq olduqca vacibdir. Bu baxımdan, Azərbaycan xalqına məxsus olan və tarixilik baxımından ənənəvi sayılan mədəniyyət nümunələrinin öyrənilməsi, onların kənar mədəniyyətlərin təsiri altında necə dəyişikliyə uğramasının tarixi-etnoqrafik araşdırılması da dissertasiya mövzusunun aktuallığını şərtləndirən əsas amillərdən hesab olunur.

Müxtəlif etnik mədəniyyətlərin, dinlərin yanaşı mövcud olması və birgə inkişafının tarixi təcrübəsi bu gün Azərbaycanda multikulturalizmin dövlət siyasəti olaraq həyata keçirilməsinə ideoloji əsas yaratmışdır. "*2008- ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Bakıda təşkil olunan "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır"* mövzusunda konfransda irəli sürülən "Bakı prosesi"nin qarşısına qoyduğu əsas məqsədlər*: "Müxtəlif mədəniyyətlər, dünyagörüşləri arasında qarşılıqlı dialoqun inkişafı; Şərq və Qərb arasında əməkdaşlığın qurulması; ... mədəniyyətlər arasında hörmət və qarşılıqlı anlaşmanın yaradılması və s." kimi müəyyənləşdirilmişdir.* [5] Göstərilən müddəalar bu sahədə dövlət siyasətinin məzmununu ifadə etməklə, müasir Azərbaycanın sosial-mədəni mühiti üçün son dərəcə mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə görülən işlərin elmi-nəzəri əsaslarını müəyyən etmək bir daha tədqiqat işinin aktuallığını ortaya qoyur.

---

5. Multikulturalizmə giriş: ali məktəblər üçün dərslik / red: R.Mehdiyev – Bakı: Şərq Qərb, - 2019. - 432 s. -s. 421-422

Azərbaycan etnoqrafik tarixşünaslığında təqdim olunan mövzunun bu və ya digər tərəflərinin araşdırılması istiqamətində müəyyən işlər görülmüş, bir sıra elmi nəşrlər ortaya çıxmışdır. Lakin bilavasitə Milli Azərbaycan Tarixi Muzeyinin (bundan sonra: MATM) materialları əsasında Avropa mədəniyyətinin azərbaycanlıların məişət və mədəniyyətinə təsiri məsələsi dissertasiya şəklində tədqiqata cəlb olunmamışdır. Dissertasiya yazılarkən istinad edilən əsas mənbələr T.Bünyadovun redaktəsi ilə nəşr edilmiş üçcildlik "Azərbaycan etnoqrafiyası"[6], A.Mustafayevin[7], F.Vəliyevin[8], R.Əfəndiyevin[9], N.Quliyevanın[10], Ş. Bünyadovanın[11] əsərlərindən ənənə və müasirləşmə prosesinin elmi qanunauyğunluqlarının müəyyən edilməsi, eləcə də tarixi dövrlər arasında müqayisə və paralellər aparılarkən istifadə edilmişdir.

Tədqiqat işində Azərbaycan-Avropa əlaqələrinin tarixi xronologiyası, qədim, orta əsrlər, yeni və müasir dövrlərdə əlaqələrin səciyyəvi cəhətləri və inkişafının tarixi səbəbləri araşdırılarkən bu mürəkkəb prosesin qarşılıqlı surətdə xalqların məişət və mədəni həyatında özünü büruzə verməsinə, onun ayrı-ayrı dövrlərdə bəzən zəifləməsi, bəzi hallarda isə sürətlənməsi tendensiyalarına aydınlıq gətirmək üçün, əsasən, tarixi, arxeoloji, numizmatik, fəlsəfi, publisistik mənbə və elmi ədəbiyyatlara istinad edilmişdir. Bu

---

6 Azərbaycan etnoqrafiyası: [III cilddə] / red. T.Bünyadov və b. - Bakı: Şərq- Qərb, - I cild. – 2007. - 544 s.; Azərbaycan etnoqrafiyası: [III cilddə] / red. T.Bünyadov və b. - Bakı: Şərq-Qərb, - II cild. – 2007. - 384 s.; Azərbaycan etnoqrafiyası: [III cilddə] / red. T.Bünyadov və b. - Bakı: Şərq- Qərb, - III cild. – 2007. - 568 s.

7. Mustafayev, A. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat) / A.Mustafayev. - Bakı: Bakı Universiteti nəşriyyatı, - 2009. - 420 s.

8. Vəliyev, F.İ. XIX - XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (tarixi etnoqrafik tədqiqat) / F.İ.Vəliyev. - Bakı: Şərq-Qərb, - 2010. - 424 s.

9. Əfəndiyev, R. Azərbaycanın maddi mədəniyyət nümunələri / R. Əfəndiyev. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, - 1960. - 35 s.

10. Quliyeva N. Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti. Baki, "Elm", 2005. - 346 s.; Quliyeva, N. XIX-XX əsrlərdə Bakı şəhər əhalisinin ailə və ailə məişəti / N.Quliyeva. – Bakı: Elm, - 2011. - 240 s.

11. Bünyadova Ş. Orta əsr Azərbaycan ailəsi / Ş.Bünyadova. Bakı: Elm. – 2012. – 384 s.

baxımdan R.Göyüşovun [12], L.Mustafayevin [13], İ.Babayevin [14], R.İslamovun[15], A.Fazilinin[16], Z.Bünyadovun[17], İ.Dadaşovanın [18], O.Əfəndiyevin [19], Y.Mahmudovun [20], Z.Həsənəliyevin [21], B.Kərimovun[22], S.Əliyarlının redaktəsi ilə "Azərbaycan tarixi üzrə qaynaqlar" [23] əsəri tədqiqat üçün olduqca qiymətli materiallar vermişdir. Bu nəşrlərdə Azərbaycanın Avropa ilə əlaqələrinin müxtəlif aspektləri araşdırılmış, tarixi, diplomatik, hərbi-strateji, tarixi-etnoqrafik baxımdan münasibət bildirilmişdir.

Dissertasiyada azərbaycanlıların geyim tərzi, süfrə mədəniyyəti və işıqlandırma vasitələrində baş verən avropasayağı yeniliklərin araşdırılmasında MATM-nin fondlarında saxlanılan Avropa istehsalı olan və yerli ustaların Avropa texnologiyası və ya mədəniyyətinin təsiri altında yaratdıqları nümunələr maddi mənbə kimi dəyərləndirilmişdir. Maddi mənbələr əyani şəkildə Avropa

---

12. Göyüşov, R. Azərbaycan arxeologiyası /R.Göyüşov. –Bakı: İşıq, -1986. –186s.
13. Mustafayev, L. Quba rayonun Pustəqasımlı kəndindən əldə edilən təsadufi arxeoloji tapıntılar // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi - 2015. – s. 299 - 308.
14. Бабайев, И. Денежное обращение Кавказской Албании в еллинистическую эпоху (конец IV – первая половина I вв до н. э.) // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi - 2002. – s. 177- 196.
15. Исламов, Р. О торговых связах Кавказской Албании с еллинистическим миром (по монетным находкам) // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi- 2002. – s. 197-201.
16 Fazili, A. H. Atropatena e.ə IV-VII əsrlər / A.H.Fazili. - Bakı: Elm, - 1992. – 216s.
17 Bünyadov Z. Azərbaycan VII - IX əsrlərdə / Z.Bünyadov. – Bakı: Şərq- Qərb, – 2007. - 424 s.
18 Dadaşova İ. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda) / İ.Dadaşova. – Bakı: Nurlan, - 2003. - 393s.
19 Əfəndiyev O.Ə. Azərbaycan Səfəviləri dövləti / O.Ə.Əfəndiyev. Bakı: Şərq – Qərb, - 2007, - 407 s.
20 Mahmudov, Y. M. Azərbaycan diplomatiyası: Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər) / Y.M.Mahmudov. – Bakı: Təhsil, - 2006. - 416 s.
21 Həsənəliyev, Z. XVII əsrdə Səfəvi dövlətinin beynəlxalq əlaqələri / Z.Həsənəliyev - Bakı: Nurlar, - 2007. - 344 s.
22 Kərimov, B. Lənkəran qəzasında rus yaşayış məskənlərinin təşkili tarixindən // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, – 2015. № 4, – s. 51-62
23 Azərbaycan tarixi üzrə qaynaqlar / red. Əliyarlı S. – Bakı: Çıraq, -2007. - 400 s.

sənayeçilərinin yerli bazara daxil olması və burada möhkəmlənməsi prosesinə aydınlıq gətirməkdə böyük dəyər kəsb edir.

Azərbaycanın maddi mədəniyyətində Avropalaşma prosesinin araşdırılması zamanı mövzu ilə əlaqədar olan M. Paşayevanın[24], G. Yoloğlunun[25], İ. Məmmədovanın[26] tədqiqat əsərlərinə istinad edilmiş, müqayisələr və paralellər aparılmışdır. S.Dünyamalıyevanın [27], G.Abdulovanın [28] Q.Ə.Rəcəblinin [29], S. Məhərrəmovanın [30], Ş. Nuruzadənin[31] və s. müəlliflərin tədqiqat əsərləri və məqalələrindən faydalanaraq ənənəvi Azərbaycan geyimlərinin müxtəlif növləri, onların təyinatı, hansı sosial zümrəyə aid olması və tədricən müasirləşməsi barədə məlumatlar tədqiqata cəlb edilmişdir.

---

24 Paşayeva, M. Azərbaycanda qədim alban tayfalarının izləri // - Bakı: Multikulturalizm, - 2016. № 1, – s. 68-74.

25 Yoloğlu, G. Türklerin aile merasimleri (tıva, xakas, qaqauz türklərinin etnoqrafik materialları əsasında) / – Ankara: 1999. – 328 s.

26 Məmmədova, İ. Təbriz şəhərinin maddi mədəniyyəti (tarixi etnoqrafik tədqiqat) / İ. Məmmədova. – Bakı: Çaşıoğlu, - 2016. - 500 s.

27. Dünyamalıyeva S.S. Moda tarixi və dünya xalqlarının milli geyimləri // S.S.Dünyamalıyeva. Bakı: Təfəkkür NPM, - 2003. - 304 s. ; Dünyamalıyeva S.S. Azərbaycanın ənənəvi geyim tiplərinin təşəkkülünə dair yerli və əxzetmə geyim elementləri // Bakı: Bakı Universitetinin Xəbərləri: Humanitar elmlər seriyası. – 2008. – № 2. – s.136-143.

28. Abdulova, G. Azərbaycan milli qadın geyim və bəzəklərinə dair (MATM-nin materialları əsasında) // Bakı: Azərbaycan Milli Elmlər Akademiyasnın Xəbərləri, İctimai elmlər seriyası, - 2015, №4, s. 88- 109; Abdulova, G. Geyim mədəniyyətimizdə düymələr // Bakı: Milli Azərbaycan Tarixi Muzeyi – 2015, - 2015, s. 328- 346; Abdulova, G. S. Atalar sözləri və xalq məsəlləri etnoqrafik duyum- yozum kontekstində, G. Abdulova. – Bakı: MBM, - 2012. - 220 s.; Abdulova, G. Milli kişi geyim kompleksində dəri papaqlar // Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri, İctimai elmlər seriyası, - 2018, № 3, s.93-114.

29 Rəcəbli, Q. "Kitabi-dədə Qorqud" Azərbaycanın qədim və orta əsrlər geyimləri haqqında // – Bakı: Dil və ədəbiyyat. Nəzəri-elmi metodik jurnal, – 2010. № 4, – s. 150-153.

30 Məhərrəmova, S. XIX- XX əsrin əvvəllərində Qarabağ və Şərqi Zəngəzurda sənətkarlıq və ticarət / S. Məhərrəmova. – Bakı: 2023. - 256 s.

31 Nuruzadə, Ş. Azərbaycanlıların ənənəvi geyimlərində milli- mənəvi irsin əksi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, – 2016. № 2. – s. 201-208.

Azərbaycanlıların süfrə mədəniyyətinin xarakterik cəhətləri araşdırılarkən "Azərbaycan süfrəsinin mis qabları"[32], "Qabusnamə" [33], "Azərbaycan arxeologiyası" [34], L.Mustafayevin [35], A.İsmayılovanın[36] və s. müəlliflərin tədqiqat işləri ilə yanaşı, ənənəvi süfrə mədəniyyətimizin bir çox qaydaları, etiketləri haqda məlumat verən qiymətli əsərlərdən də yeri gəldikcə istifadə olunmuşdur.

Avropa mədəni və texnoloji proseslərinin ənənəvi Azərbaycan sənətkarlığına təsiri probleminin araşdırılması üçün, MATM-ın müxtəlif illərdə nəşr olunan topluları, R.Tağıyevanın [37], Ə.Sumbatzadənin [38], İ.Kostinanın [39], N.Tahirzadənin [40], A. Piralovun[41], L. Kərimovun[42] və s. müəlliflərin tədqiqat əsərlərindən, o cümlədən etibarlı internet materiallarından geniş istifadə olunmuşdur.

---

32. Azərbaycan süfrəsinin mis qabları (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) Kitab-albom / elmi red. N.Vəlixanlı - Bakı: Ziya, - 2013. - 128 s.
33. Qabusnamə / red. Ə.Cəfər –Bakı: Şərq- Qərb, -2006. - 216 s.
34. Azərbaycan arxeologiyası (Orta əsrlər): [6 cilddə] / red. M. Rəhimova və b. – Bakı: Şərq- Qərb, - VI cild. - 2008. – 632 s.
35. Mustafayev, L. Azərbaycan erkən orta əsrlər dövrü torevtika nümunələrində antik dünya mədəniyyətinin izləri // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi – 2012. – s. 225-235.
36. İsmayılova A. MATM-da qorunan seladon qab nümnələrinə dair // Sara Aşurbəylinin anadan olmasının 110 illik yubileyinə həsr olunmuş Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu VI respublika elmi konfransı, - Bakı: Elm və təhsil, - 26 iyun, - 2016. - s. 51-156.
37. Tağıyeva, R. Azərbaycan xalçası / R. Tağıyeva. – İstanbul: Offset, - 1999. – 259s.
38. Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. А.С. Сумбатзаде. / Баку: Изд-во АН Азерб.ССР, 1964. – 501 с.
39. Костина, И. Азербайджан на регионалных, обшероссийских, всемирных выставках во 2-ой половине XIX В (сельское хозяйство) // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi- 2002 , – 2002. – s.141-146.
40. Таирзаде Н. Витольд Згленицкий и его проект школы золотых и серебряных дел мастеров в Баку(конец XIX- начало XX века) // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi- 2002 , – 2002. – s.106-124.
41. Пиралов, А. Краткий очерк кустарных промыслов Кавказа / А. Пиралов. - Санкт- Петербург: Якор, - 1913, - 2128 с.
42. Керимов, Л.Г. Азербайджанский ковер /Л.Г. Керимов. - Баку: Гянджлик, - 1983. - 279 с.

XIX – XX əsrin əvvəllərində formalaşan ictimai münasibətlər və maarif, o cümlədən ədəbi mühit və musiqi sənətində baş verən yeniliklər və s. məsələlərin araşdırılmasında "Üzeyir Hacıbəyov ensiklopediyası"[43], "Azərbaycan publisistikası antologiyası" [44] kimi ədəbiyyatlarla yanaşı F.Şuşinski[45], Z.Səfərova[46], H.Hüseynov [47], S.Gəncəli[48], M.Şükürov[49], H.Zahidova[50], Q.İlkin[51], F.Cabbarov[52], E.Cavadova[53] və s. müəlliflərin tədqiqat işlərinə istinad edilmişdir. Avropa ölkələri ilə qarşılıqlı-mədəni əlaqələrin öyrənilməsində bu ədəbiyyatlar istiqamətverici olmuş, onlardan yaradıcı şəkildə faydalanılmışdır.

Xülasəsi verilən bu elmi ədəbiyyatlar və maddi mənbələr təqdim olunan mövzunun müəyyən tərəflərini araşdırmaq üçün qiymətli olsa da, bütünlükdə problemin tədqiqinə birbaşa xidmət etməmişdir. Ona görə də təqdim olunan dissertasiya işi bu sahədəki boşluğu doldurmağa hədəflənməklə, ilk təşəbbüs hesab oluna bilər.

**Tədqiqatın obyekti və predmeti.** XIX-XX əsrin əvvəllərində Azərbaycan xalqının məişət və mədəniyyətinin mövcud vəziyyəti

---

[43] Üzeyir Hacıbəyov ensiklopediyası / red. hey. E.Abasova və b. - Bakı: Şərq-Qərb, - 2007. - 264 s.+ 16 s. (illüstrasiya).

44. Azərbaycan publisistikası antologiyası / tərt. ed. C. Məmmədov – Bakı: Şərq-Qərb, - 2007. – 687 s.

45. Şuşinski, F. Azərbaycan xalq musiqiçiləri / F. Şuşinski. – Bakı: Yazıçı, - 1985. - 389 s.

46. Səfərova, Z. Azərbaycanın musiqi elmi ( XIII- XX əsrlər) / Z. Səfərova. – Bakı: Azərnəşr, - 2006. - 544 s.

47. Hüseynov, H. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən / H. Hüseynov. – Bakı: Şərq- Qərb, - 2007. - 400 s.

48. Gəncəli, S. İşıqlı ömürlər, kövrək talelər / S. Gəncəli. – Bakı: Azərnəşr, - 1991. - 271 s.

49. Şükürov, M. Siyasi idrak və yeni mənəvi imperativ / M.Şükürov. – Bakı: Elnur-P, - 2005. - 143 s.

50. Zahidova, H. Azərbaycan etnoqrafiyası Cəfər Cabbarlının yaradıcılığında ( tarixi- etnoqrafik tədqiqat ) / H. Zahidova. – Bakı: Elm, - 2011. - 304 s.; Cəfər Cabbarlının dini dünyagörüşü / H.Zahidova. – Bakı: Elm, -2012. - 218 s.

51. Qılman, İ. Bakı və bakılılar / İ.Qılman. – Bakı: Nurlar, - 2006. - 384 s.

52. Cabbarov, F. H. Z. Tağıyevin qız məktəbinin tarixindən / F. Cabbarov. Bakı: Ziya, - 2011. - 392 s.

53. Cavadova, E. Həsən bəy Zərdabinin etnoqrofik görüşləri / E. Cavadova. – Bakı: Elm və təhsil, - 2012. - 165s.

tədqiqat işinin obyektini, MATM “Etnoqrafiya”, “Arxeologiya”, “Təsviri materiallar”, “Xüsusi”, “Sənədli mənbələr”, “Foto-neqativ materiallar”, “Köməkçi Tarix materialları” fondlarında saxlanılan, Azərbaycan xalqının məişət, mədəniyyət və sənətkarlığına Avropanın təsir imkanlarını əks etdirən maddi-vizual materiallar və onların elmi-etnoqrafik araşdırılması isə tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi MATM-da qorunub saxlanan Avropa mənşəli maddi və mədəni-vizual materialların köməyi ilə azərbaycanlıların məişət və mədəniyyətinə Avropanın yenilikçi-dəyişdirici təsirini tədqiq etməkdir. Tədqiqat işində qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- MATM-ın müxtəlif fondlarında saxlanılan və Azərbaycan məişətinin müasirləşməsi tarixini izləməyə imkan verən materialları tədqiqata cəlb etmək;
- Müxtəlif tarixi dövrlərdə Azərbaycan-Avropa mədəni əlaqələri tarixinin dinamik inkişafını araşdırmaq;
- XIX-XX əsrin əvvəllərində azərbaycanlıların məişət və mədəniyyətinin bəzi sahələrinin qismən avropalaşmasının əsas səbəblərini, özünəməxsus xüsusiyyətlərini və qanunauyğunluqlarını müəyyənləşdirmək, Avropa və eləcə də Rusiya istehsalı olan məhsulların Azərbaycan məişətinə daxil olmasının sosial-iqtisadi səbəblərini təhlil etmək;
- Azərbaycan xalqının maddi mədəniyyətində (geyimlər, mətbəx mədəniyyəti, memarlıq, evlərin daxili sahmanında işıqlandırma vasitələri) Avropalaşmanın təsir imkanlarını müəyyənləşdirmək;
- Azərbaycanlıların sənət yaradıcılığında (ipəkçilik, parça istehsalı, xalçaçılıq, boyaqçılıq, zərgərlik) Avropa yeniliklərinin, Avropa mədəni təsirinin izlərini aşkar edərək elmi-etnoloji araşdırmaya cəlb etmək;
- Yenilənmə-avropalaşma prosesinin gedişatında baş verən neqativ halları analiz etməklə, Avropalaşmanın müsbət və mənfi cəhətlərini aşkara çıxarmaq;
- İctimai münasibətlər və maarif sahəsində Avropalaşmanın təsirini aşkara çıxarmaq;

- Azərbaycan musiqi sənətinə Avropa üslubunun nüfuz etməsinin gedişini izləyib, bu sənət sahəsində yaranan yeni ənənələri təhlil etmək.

**Tədqiqat metodları.** Azərbaycanlıların məişət və mədəniyyətinə Qərbin- Avropanın təsiri imkanlarının etnoqrafik araşdırılmasında əldə olunan elmi nəticələri milli ideologiya əsasında müəyyənləşdirmək tədqiqatın metodoloji əsasını təşkil edir. Tədqiqat zamanı məişət və mədəniyyətin müxtəlif sahələrində baş verən keyfiyyət dəyişmələri və onların xarakterik xüsusiyyətləri təhlil olunarkən tarixilik baxımından elmi yanaşma, təsviri, sistematik tarixi ümumiləşdirmə, tarixi-müqayisəli analiz metodlarından istifadə olunmuşdur. Tədqiqatda ardıcıllıq və varislik prinsipləri gözlənilmiş, həmçinin "ənənə və Avropa təsirindən sonra yaranan yenilik" kontekstindən çıxış edilərək, müqayisəli təhlillər aparılmışdır. Mənbə kimi çıxış edən muzey materialları seçilərkən onlar öz xarakterlərinə uyğun olaraq analiz olunmuş, etnoqrafik tədqiqat sahələri üzrə sistemləşdirilmiş, özünəməxsus xüsusiyyətlər və analogiyalar sintez olunmuş, nəticələr ümumiləşdirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. MATM-ın fondlarında qorunan materialların müasirləşmə və avropalaşma baxımından tarixi-etnoqrafik tədqiqata cəlb edilməsi Azərbaycan etnoqrafiyası üçün yeni elmi perspektivlər ortaya qoyur.

2. Azərbaycan-Avropa mədəni əlaqələrinin tarixilik baxımından izlənilməsi bu əlaqələrin qədimliyindən soraq verir.

3. Orta əsrlərdə Azərbaycanla Avropa dövlətləri arasında əlaqələr, əsasən, ticarət xarakteri daşımışdır. Yerli mədəniyyətin Avropa ölkələri ilə müqayisədə, daha yüksək səviyyədə olması, həmçinin burada islam dininin hakim mövqeyi, ölkədə mövcud olan siyasi sistemlərin mühafizəkarlığı və s. səbəblərdən Qərb mədəniyyəti məişətə və mədəniyyətə geniş sirayət edə bilməmişdir.

4. Avropa ilə müxtəlif səviyyələrdə əlaqələr XIX əsrdən etibarən daha da genişlənmişdir. Belə ki:

- Avropa mədəniyyəti kütləvi şəkildə Azərbaycanda Rusiyanın müstəmləkə siyasətinin təsiri ilə yayılmağa başlamışdır. Köçürmə siyasəti nəticəsində rusların və almanların Qafqazın müxtəlif regionlarda məskunlaşdırılması buna misal ola bilər.

- Həmçinin iqtisadiyyatın texnikiləşməsi və modernləşməsi gənclərin Qərbə təhsil miqrasiyasını şərtləndirmişdir. Nəticədə, Vətənə geri qayıtdıqdan sonra onların əksəriyyəti öz həyat tərzi və məişətini Avropa tərzində qurmağa meyl etmişdilər.
- Müxtəlif ölkələrdən sənaye, ticarət və s. məqsədlə burjuaziyanın gəlişi və Azərbaycanda məskunlaşması avropalaşmağa maraq yaratmışdır.
- Maarifçilik hərəkatının təbliğatı, burjuaziya nümayəndələrinin öz müəssisələrini, yaşayış mühitini modernləşdirməsi kimi proseslər avropasayağı həyat tərzinin məişətə sirayət etməsi və bir sıra sahələrdə ənənəvi etnoqrafik xüsusiyyətlərin tədricən aradan qalxaraq Qərb mədəniyyətinin təsiri altına düşməsi ilə nəticələnmişdir.

5. Avropalaşma meylləri xalqımızın maddi mədəniyyətində də aydın izlərini qoymuşdur. Muzeydə toplanan avropasayağı geyimlər, mətbəx mədəniyyətinə aid avadanlıqlar, memarlığı əks etdirən foto-sənədlər və evlərin daxili sahmanında əsas yer tutan işıqlandırma vasitələri timsalında bu yeniliklər aydın şəkildə izlənməkdədir.

6. XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycan sənətkarlığına (ipəkçilik, parça istehsalı, xalçaçılıq, boyaqçılıq, zərgərlik) kapitalist istehsal üsulunun və Avropa texnologiyalarının-dəzgah, alət və avadanlıqların, süni boyaq maddələrinin tətbiqi onun forma və məzmunca dəyişilməsinə səbəb oldu.

7. XIX-XX əsrin əvvəllərində müasirləşmə və ya avropalaşma prosesinə münasibət baxımından Azərbaycan ziyalıları üç qrupa bölünürdü. Mühafizəkarlar kənardan ruhi-mənəvi dəyərlərə yad heç bir mədəni təması qəbul etmirlər. Avropa mədəniyyətinin idxalı ilə din-imanın, milli-mənəvi dəyərlərin əldən gedəcəyini ehtimal edirdilər. İfrat qərbçilər Qərb mədəniyyətinin tam bir bütöv şəkildə qəbuluna can atırdılar. Üçüncülər isə mədəniyyətlərarası inteqrasiyanı qəbul edərək təklif edirdilər ki, elmi-texniki tərəqqi, mədəni yeniliklər əxz edilməli, bununla belə, mənəvi dəyərlər də qorunmalıdır.

8. Bəhs olunan dövrdə Avropa musiqi alətlərinin sürətlə incəsənətə daxil olması mühüm yenilik idi. Onlar qısa müddətdə milli musiqi mədəniyyətinin tərkib hissəsinə çevrilmişdi. Milli musiqini ifa etməklə onlara yeni rəng çalarları qatan bu alətlər xalq tərəfindən də məmnuniyyətlə qarşılanırdı. XIX əsr Qərb musiqi alətlərinin gətirdiyi

dəyişikliklər həm xalq musiqisində, həm də klassik muğam sənətində özünü təsdiqləmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- İlk dəfə olaraq MATM-ın fond və ekspozisiyalarında qorunub nümayiş etdirilən əyani-vizual materiallar və sənədlər əsasında Azərbaycan xalqının məişət və mədəniyyətinə Avropalaşma prosesinin təsiri fəlsəfə doktoru dissertasiyası çərçivəsində tarixi-etnoqrafik baxımdan araşdırılmışdır.
- XIX-XX əsrin əvvəllərində azərbaycanlıların məişət və mədəniyyətinin müxtəlif sahələrində avropalaşmanın əsas səbəbləri, özünəməxsus xüsusiyyətləri və qanunauyğunluqları müəyyənləşdirilmiş, Avropa və eləcə də Rusiya istehsalı olan məhsulların Azərbaycan məişətinə daxil olmasının sosial-iqtisadi səbəbləri təhlil edilmişdir.
- İctimai münasibətlər və maarif sahəsində Avropalaşmanın təsiri aşkara çıxarılmış, Azərbaycan musiqi sənətinə Avropa üslubunun nüfuz etməsinin gedişatı izlənərək, bu sənət sahəsində yaranan yeni ənənələr müəyyən olunmuşdur.
- Azərbaycan xalqının maddi mədəniyyətində (geyimlər, mətbəx mədəniyyəti, memarlıq, evlərin daxili sahmanında işıqlandırma vasitələri) Avropalaşmanın təsir imkanları muzey materialları timsalında müəyyənləşdirilmişdir.
- Azərbaycanlıların əsas sənət sahələrində (ipəkçilik, parça istehsalı, xalçaçılıq, boyaqçılıq, zərgərlik) Avropa yeniliklərinin, üslub və texnoloji ixtiralarının mədəni təsirinin izləri aşkar edilərək elmi-etnoloji araşdırmaya cəlb edilmişdir.
- Avropalaşma prosesinin gedişatında baş verən neqativ hallar analiz edilmiş, avropalaşmanın müsbət və mənfi cəhətləri məntiqi şəkildə dəyərləndirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Təqdim olunan araşdırma Azərbaycan xalqının məişət və mədəniyyətində özünü büruzə verən dinamik inkişafı və keyfiyyət dəyişikliklərinin mahiyyətini izləmək, xalqların bir-birinə qarşılıqlı-mədəni təsirinin mexanizmini dərk etmək üçün nəzəri əhəmiyyət kəsb edir.

Dissertasiya işində toplanmış müqayisəli materiallar və əldə olunmuş nəticələr gələcəkdə Azərbaycanın məişət və mədəniyyətinə həsr

olunan ümumiləşdirilmiş əsərlərin yazılmasında, ali məktəblərin bakalavr və magistratura təhsil pillələrində mühazirə və ixtisas kurslarının təşkilində, muzeyə səfər edən yerli və əcnəbi turistləri, eləcə də digər qonaqları Azərbaycanın məişət və mədəniyyətinə Avropanın mədəni təsiri ilə bağlı məlumatlandırmaqda, habelə qısa məlumat xarakterli kitabçaların, kataloqların, bukletlərin və açıqca dəstlərinin hazırlanmasında əhəmiyyətli ola bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas nəticələri Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlərdə, o cümlədən beynəlxalq və respublika elmi konfranslarının materiallarında, ümumilikdə 5 elmi məqalədə və 4 konfrans məruzəsində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi AMEA (hazırda: Mədəniyyət Nazirliyi) MATM "Etnoqrafiya elmi fond" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələri daxil olmaqla ümumi həcmi.** Dissertasiyanın ümumi həcmi (ədəbiyyat siyahısı istisna olmaqla) 286297 işarədən ibarətdir. Giriş 28412, I fəsil 35462, II fəsil 137489, III fəsil 41104, IV fəsil 32530, nəticə isə 11300 işarə təşkil edir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilat haqqında məlumat verilir və işin quruluşu, həcmi göstərilir.

Dissertasiyanın birinci fəsli **"Azərbaycan-Avropa mədəni-ticarət əlaqələri" adlanır.** Fəslin **"Qədim dövrdə, Orta əsrlər və Yeni dövrdə mədəni- ticarət əlaqələri"** adlı birinci paraqrafında Azərbaycanla Avropa ölkələri arasında meydana gələn münasibətlərin ilkin mərhələsi araşdırılır. Məlum olur ki, Azərbaycanla Avropa arasında mədəni əlaqələr e.ə IV əsrin II yarısında Makedoniyalı İskəndərin yürüşündən sonra mütəmadi xarakter almışdır. Belə ki,

İskəndərin yaratdığı imperiya tez dağılmasına baxmayaraq, ellin mədəniyyəti yayıldığı bütün xalqların həyatında özünəməxsus iz qoydu.

Erkən orta əsrlərdə Avropa ilə qurulan əlaqələr, əsasən, iqtisadi-ticari səciyyə daşıyırdı. Səlcuqların və monqolların yürüşlərindən sonra Avropa ilə diplomatik səviyyədə əlaqələr quran ilk Azərbaycan dövləti Ağqoyunlu oldu. Onun süqutundan sonra yaranan Səfəvilər dövlətinin hökmdarları da eyni ənənəni davam etdirirdilər.

XVIII əsrin ortalarından etibarən Azərbaycanda vahid idarəçiliyin olmaması, Avropa əlaqələrin məhdudlaşması ilə nəticələndi. Bu dövrdə feodal pərakəndəliyi ölkənin siyasi və iqtisadi baxımdan inkişafdan qalmasına səbəb oldu.

**“XIX əsr – XX əsrin I yarısında mədəni- ticarət əlaqələri”** adlanan ikinci paraqrafda çar Rusiyasının Azərbaycanı işğal etməsindən sonra Avropa ilə münasibətlərin siyasi və iqtisadi aspektləri tədqiq edilir. *Xüsusilə “yerli xalqın iqtisadi həyatını inkişaf etdirmək” bəhanəsilə həyata keçirilən köçürmə siyasətinin nəticələrinə diqqət yetirilir*[54]. Dövrün maarifçi-ziyalıları Avropa ölkələrində baş verən irəliləyişin səbəbini cəmiyyətin azadlığında görürdülər. Onlara görə də baş verən tərəqqinin birinci şərti təhsil, ikincisi isə insanın azad təfəkkürə sahib olması hesab edilirdi.

Dissertasiyanın ikinci fəsli **“Azərbaycanlıların maddi mədəniyyətində avropalaşma xüsusiyyətləri”** adlanır.

Fəslin **“Azərbaycanlıların geyim tərzində Avropa üslubu”** adlanan birinci paraqrafında tədqiq olunan dövrdə əhalinin ənənəvi geyim mədəniyyətində baş verən dəyişikliklər araşdırılır. XIX əsrin sonu – XX əsrin əvvəllərindən etibarən cəmiyyətin ictimai, iqtisadi və mədəni inkişafı ənənəvi geyimlərin sıradan çıxmasını sürətləndirdi. Bu proses Azərbaycanla yanaşı Osmanlı, Qacarlar və s. şərq dövlətlərində də müşahidə olunmuşdur. Azərbaycanda yeniləşmə əsasən şəhərlərdə kübarların geyimlərində, fəhlələrin iş və şagirdlərin

[54] Əsədova Q. XIX – XX yüzyılda Rusyanın göç politikası sonucu almanların, ermenilerin ve rusların Azerbaycanda yerleşdirilmesine dair // İnternational Gobeklitepe Social Sciences & Humanity Congress II, - Şanlıurfa: – 6-8 may, 2021. –s.528-532 -Url:https://d5d9044a-7b4a-4f75-852f-4646c3028d44.filesusr.com/ugd/614b1f_1827853c87154829b3db263dd502cc18.pdf

məktəbli uniformalarında özünü biruzə vermişdi. Qeyd edək ki, problemin öyrənilməsində Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunun materiallarından geniş şəkildə istifadə edilmişdir.

Paraqrafın **"Kişi geyimləri"** bəndində göstərilir ki, geyim mədəniyyətində ilk dəyişikliklər kişi geyimlərində müşahidə olunurdu. Arxalıq və çəpkənlərin qol hissələrində atmaların ləğvindən sonra onların ətəkləri də qısaldıldı. Köynəklərin boyunlarına yaxalıq əlavə edilir, daha düz və dar biçilən qollara manjet qoyulurdu. XIX əsr ərzində qərblilərin geyim dəstinin əsas elementlərindən olan fraklar tədricən yüksək zümrənin geyim kompleksinə daxil oldu. Kişilər arasında xüsusi baş geyimi sayılan ənənəvi papaqlar sovet hökumətinin qurulmasından sonra kepka və şlyapalarla əvəz olunurdu. Belə ki, *"xalq arasında təbliğ olunan "komsomol" obrazının başında mütləq kepka və yaxud şlyapa olmalı idi. Hazırda çox az istifadə olunsa da, namus və qeyrəti ehtiva edən dəyər kimi hələ də cəmiyyətdə xatırlanır"*[55].

Paraqrafın **"Qadın və uşaq geyimləri"** bəndində qadın və uşaq geyimlərinin müasirləşməsi prosesi araşdırılır. Dəyişikliyə daha çox məruz qalan qadın geyimlərindən biri arxalıqlar idi. Bər-bəzəkli daş qaşlarla işlənən arxalıqlar formaca dəyişərək pencəklərlə əvəz olundu. Avropa dəbinin yayılmasına qədər çuxa, arxalıq və çəpkənin altından köynək geyinilirdi. Köynəklərin sinə və qolları fərqli formada biçilməyə başlandı. Üst-üstə geyinilən taxtalı tumanlar isə tək ətəklərlə rəqabətə tab gətirməyərək, istifadədən çıxarıldı. Sadə köynək və ətəkdən ibarət kostyum modelləri əvvəlki geyimlərə nisbətən yüngül olmaqla yanaşı, həm də ucuz başa gəlirdi.

Qadın geyimlərinin yenilənməsinə tərəddüdlə yanaşan ziyalılar çadranın geyim dəstindən çıxarılması məsələsində həmrəy idilər. Sovet dövründə də çadraya qarşı mübarizə davam edirdi. Beləliklə, *"bu vaxta qədər küçədə tək gəzməyə ixtiyarı olmayan, işi evdə uşaqlara baxmaq və ailəsinə qulluq etmək olan qadın, yarım əsr ərzində çadranı açıb lak çəkmə, kostyum geyinib kişilərlə çiyin-çiyinə*

55. Əsədova, Q. XIX əsrin sonu XX əsrin əvvəllərində Avropa mədəniyyətinin Azərbaycanlıların geyim tərzinə təsiri // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, – 2015. №1, – s. 94- 103. S.97

*çalışmağa başladı".* [56] Lakin bu yeniliklər ənənə tərəfdarlarının müqavimətilə qarşılanırdı.

Yeniliklər özünü təhsilə cəlb edilmiş uşaqların geyimlərində daha çox göstərirdi. Bakıda açılmış əksər məktəblərdə şagird geyimləri Avropa məktəblilərinin uniformaları nümunəsində hazırlanırdı. Bu geyimlərdən istifadə edən gənclər tədricən milli geyimlərdən uzaqlaşırdı.

Yenilənmə tendensiyası mərasimlərə və dolayısı ilə mərasim geyimlərinə də təsirsiz ötüşmürdü. Ənənəvi gəlinliklər qırmızı rəngli parçadan tikilir, xonçalar qırmızı rəngdə seçilirdi. Ümumiyyətlə, qırmızı rəng xalq arasında istilik, bolluq-bərəkət simvolu kimi qəbul edilirdi. Tədricən ağ donlar milli gəlinlikləri sıxışdırıb aradan çıxardı. Lakin bəzi nüanslar hələ də qorunub saxlanılmışdır. İndi də ata evini tərk edən qızın başına fatanın üzərindən qırmızı duvaq atılır, beli qırmızı belbağı ilə bağlandıqdan sonra xeyir-dua ilə yola salınır. Yenilikləri dövrün tələbi hesab etsək də, gəlinliklərdə olan bu dəyişiklik, zənnimizcə, məzmuna varmadan Qərb geyiminin formaca əxz olunması idi.

Fəslin ikinci paraqrafı **"Azərbaycan süfrəsində Avropa istehsallı qablar"** adlanır. **"Çini qablar", "Metal qablar"** və **"Şüşə qablar"** adlı üç bənddən ibarət olan paraqrafda Azərbaycan əhalisinin ənənəvi süfrə mədəniyyətinə daxil olan yeni elementlər, onların etnoqrafik cəhətləri öyrənilir. Bu yeniliklər, əsasən, yeməklərin süfrəyə verilməsi və ondan istifadə vasitələri – yeni növ yemək dəstləri ilə bağlı idi. Ənənəvi yeməklərdə isə yenilik, demək olar ki, baş vermədi. Daha çox şəhərlərdə müşahidə edilən yeniliklər kəndlərə o qədər də təsir etmirdi. Muzeydə qorunan çay və yemək dəstləri, kasa, nimçə, fincanlarla yanaşı, müxtəlif məqsədlə istifadə olumuş çini qablar, cam, çay dəstgahı, eləcə də metaldan olan samovar, stəkanaltlığı, sinilər, bıçaq, çəngəl və qaşıqlar Azərbaycanda ənənəvi süfrə mədəniyyətinə Avropa mədəniyyətinin təsirini izləməyə imkan verməklə yanaşı, Avropa ölkələri ilə qurulan iqtisadi əlaqələrin də

[56] Əsədova, Q. XIX əsrin sonu XX əsrin əvvəllərində Avropa mədəniyyətinin Azərbaycanlıların geyim tərzinə təsiri // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, – 2015. №1, – s. 94- 103. s.99

səviyyəsini nümayiş etdirir. Xarici şirkətlərin yerli bazarda apardıqları rəqabət siyasətinə diqqət çəkilir.

Fəslin **"İşıqlandırma vasitələri"** adlanan üçüncü paraqrafında göstərilir ki, ən primitiv, sadə çıraqlardan tutmuş, mürəkkəb konstruksiyalı, elektriklə çalışan çılçıraqlara qədər, maraqlı bir kolleksiya Muzeyin Arxeologiya və Etnoqrafiya fondlarında saxlanılır. Avropadan gətirilmiş və ya Qərb texnologiyası əsasında yerli ustalar tərəfindən hazırlanmış işıqlandırma vasitlələrini belə təsnifatlandırmaq olar: a) çıraq və şamdanlar; b) lampalar, fənərlər; c) çılçıraqlar. Onlardan interyerləri işıqlandırmaqla yanaşı, həm də dekor məqsədilə istifadə edilmişdir.

Fəslin **"Azərbaycan memarlığında Avropa üslubunun tətbiqi"** adlanan dördüncü paraqrafında Avropa mədəniyyətinin təsiri nəticəsində şəhərlərin, küçə və obyektlərin, eləcə də evlərin interyer və eksteryerlərinin planlanmasında və inşasında baş verən yeniliklərdən bəhs edilir. Paraqrafda sözü gedən məsələlər hazırda Milli Azərbaycan Tarixi Muzeyinin yerləşdiyi inzibati binanın – Hacı Zeynalabdin Tağıyevin sarayının nümunəsində tədqiq olunur. Məlum olur ki, XIX əsrin sonları – XX əsrin əvvəllərindən başlayaraq ölkədə meydana gələn texniki tərəqqi, əhalinin məişət şəraitində baş verən dəyişikliklər, eyni zamanda, ənənəvi ev tiplərində yeniliklərin yaranmasına səbəb oldu. Ayrı-ayrı sosial təbəqələrə, xüsusilə burjuaziyaya məxsus ənənəvi evlər təkcə memarlıq-plan quruluşuna və bəzək tərtibatına görə deyil, həm də daxili interyerinə və avadanlığına görə yenilik idi.

**"Azərbaycan sənətkarlığında Avropa texnologiyalarının tətbiqi"** adlanan dördüncü fəsildə Azərbaycanda ipəkçilik, xalçaçılıq, boyaqçılıq və zərgərlik kimi sənətkarlıq sahələrinə Avropa mədəniyyətinin təsiri, eləcə də beynəlxalq sərgilərdə azərbaycanlı sənətkarların iştirakı məsələləri öyrənilir.

Fəslin birinci paraqrafı **"İpəkçilik və parça istehsalı"** adlanır. Burada qeyd edilir ki, XIX əsrdə çar Rusiyası xammala olan tələbatını ödəmək üçün ipəkçiliyi inkişaf etdirməyə səy göstərirdi. Buxarlı mühərriklərin istifadəyə verilməsi ilə bir sıra kustar müəssisələr tədricən genişlənərək istehsalı artırır, fabriklərə çevrilirdi. Onlar əksər hallarda öz baramaları ilə kifayətlənmir, ərazidə yaşayan və bu işlə daha məhdud çərçivədə çalışan kümdarlardan xammal toplayır, onun

emalını həyata keçirirdilər. Nəticədə, fabrik qaydasında istehsalla bərabər, kustar təsərrüfatların da genişlənməsi paralel olaraq baş verirdi.

İpəyin geniş həcmdə ixrac olunmasına baxmayaraq, yerli istehlakda Avropadan idxal olunan parçaya da tələbat mövcud idi. Avropalaşma prosesi yerli parça bazarına da təsirsiz ötüşmədi. Kasıb təbəqənin diqqətini Avropanın ucuz fabrik malları cəlb edirdi. Bu dövrdə *“firəng çiti, Proxorov ağı, rus çiti kimi ucuz parça növləri, fabrik istehsalı olan şilə, qədək, bez, satin, lastik kimi parçalar geyimlərin hazırlanmasında sərfəli hesab olunurdu”.*[57]

Fəslin **“Xalçaçılıq”** adlı ikinci paraqrafında isə qeyd olunur ki, XIX – XX əsrlərdə bazarın tələbatı, əsasən, çoxçeşidli xalçalara olduğundan əvvəlki ornament və naxışlara yeniliklər əlavə edilirdi. Xalça ustaları daim yeni maraqları nəzərə almaqla, Avropadan və Rusiyadan gətirilən müxtəlif parça və məişət qabları üzərindəki təsvirləri öyrənir və cəlbedici elementləri öz xalçalarının çeşnisinə əlavə edirdilər. Məsələn, “*Qubada Fransadan alınmış şəkillər əsasında flamand qobelenləri tipində xalçalar toxunurdu*”.[58]

**“Boyaqçılıq”** paraqrafında göstərilir ki, Rusiya toxuculuq sənayesinin rəngə olan tələbatı ilə əlaqədar XIX əsrin I yarısında Azərbaycanda ənənəvi boyaqkökü istehsalı artır. Lakin “*1841-ci ildə N. Zinin tərəfindən anilin və 1868-ci ildə Qrebe və Liberman tərəfindən alizarin maddələrinin kəşfindən”* [59] sonra bu sahədə durğunluq yaranır. “*Bu maddələrin istehsalı ucuz başa gəldiyindən tezliklə Avropa və Rusiya bazarında özünə möhkəm yer tutdu. Bu da boyaqotunun, yüksək keyfiyyətinə baxmayaraq, xarici bazardan və eləcə də, yerli istehsaldan tədricən sıxışdırılıb çıxarılması ilə nəticələndi”*[60].

---

[57] Azərbaycan etnoqrafiyası/ red. T.Bünyadov və b. - Bakı: Şərq- Qərb, - II cild. – 2007, -s.92.

[58] Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. А.С. Сумбатзаде. / Баку: Изд-во АН Азерб.ССР, 1964, s.27.

59. Qarabağ xalçaları (kataloq) / red. N. Vəlixanlı N. tərt. ed. G. Abdulova. – Bakı: Ziya, - 2013, - 100 s. s.19

[60] Əsədova, Q. Avropa mədəniyyətinin Azərbaycanda xalçalılıq sənətinə təsirinə dair (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi-2014, – 2014. – 379- 387. –s.136.

Fəslin **“Zərgərlik”** adlı paraqrafında zərgərlik sənətində müasirləşmə prosesi araşdırılır. XIX əsrin sonu – XX əsrin əvvəllərində dünyada istehsal texnologiyasının təkmilləşməsinə baxmayaraq, zərgərlər ən sadə üsullardan istifadə etməklə yüksək tərtibatda bəzək nümunələri hazırlayırdılar.

Zərgərlik sənətini inkişaf etdirmək üçün zərgərlik məktəbinin yaradılması ideyası Bakı quberniyası Əyar palatasının məmuru-Vitold Zqlenitski tərəfindən irəli sürüldü. Onun əsas məqsədi Avropada zərgərlik sənətində istifadə olunan istehsal alətləri və texnologiyalarını yerli zərgərlərə öyrətmək, istehsalın həcmini və keyfiyyətini yüksəltməklə onları əlverişli əmtəəyə çevirmək idi. Lakin bu layihə bigabəlik ucbatından baş tutmadı. Qeyd edək ki, bu dövrdə Azərbaycanda bəzək əşyası və geyim aksesuarları kimi Avropadan hazır gətirilmiş zinət əşyaları ilə yanaşı, orada istehsal olunmuş qızıl və gümüş sikkələrdən də istifadə olunurdu.

Fəslin **“Azərbaycan sənətkarlarının əl işləri Avropa sərgilərində”** adlı sonuncu paraqrafında Azərbaycanda istehsal olunan sənaye və kənd təsərrüfatı məhsullarının beynəlxalq sərgilərdə nümayiş etdirilməsi və bunun iqtisadi nəticələrindən söhbət açılır. Bu dövrdə sənayeçilər satış bazarlarını genişləndirmək, müştərilərinin sayını artırmaq məqsədilə təşkil olunan beynəlxalq sərgilərdə iştirak edərək öz məhsullarını nümayiş etdirirdilər. Belə sərgilər elmi-texniki yeniliklərlə tanış olma və istehsalatı təkmilləşdirmə baxımından da kapitalistlər üçün olduqca maraqlı idi.

Sonuncu fəsil **“Azərbaycanlıların mənəvi mədəniyyətində Avropanın yeri”** adlanır. Fəslin **“Maarif. Milli kadrların yetişməsində Avropanın yeri”** adlanan birinci paraqrafında tədqiq olunan dövrün ictimai prosesləri haqda məlumat verilir. XIX əsrin sonlarına doğru texniki, səhiyyə və s. sahələrdə yüksək ixtisaslı kadrlara olan tələbat gənclərin təhsil almaq üçün Rusiyaya və Avropanın müxtəlif ölkələrinə üz tutmalarına səbəb olurdu. Cəmiyyətin böyük bir hissəsi təhsilin insan həyatındakı rolunu anlayır və övladlarının maariflənməsinə can atırdı.

XIX əsrin ən böyük hadisəsi qadın təhsilinə yeni baxışların formalaşması idi. Cəmiyyətdə qadın hüquqsuzluğu hər bir ziyalını narahat edən əsas məsələlərdən idi. XIX əsrin ortalarınadək qadınların təhsil alması məqsədilə təsis olunmuş xüsusi məktəblər məhdud idi.

Buna baxmayaraq, evdə fərdi təhsil alması sayəsində özünü inkişaf etdirmiş Azərbaycan qadınları da vardı. Belə qadınlar, əsasən, elmin, təhsilin dəyərini anlayan, inkişaf etmiş ziyalı və varlı zümrəyə məxsus ailələrdə böyümüşdülər. "*XIX əsrin sonu – XX əsrin əvvəllərindən etibarən Azərbaycanda milli maarifçilərin təbliğatı, Avropa ilə mədəni, ictimai əlaqələr nəticəsində cəmiyyətdə qadına münasibətdə müsbətə doğru dəyişikliklər baş verdi. Qadınların təhsilə cəlb olunması prosesi tədricən sürətlənməyə başladı. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə qadına cəmiyyətdə verilən qiymət artıq özünün Şərqdəki ən yüksək hədddinə çatdı*".[61]

Fəslin **"Azərbaycan professional musiqi məktəbinin yaranmasında Avropa musiqi alətlərinin rolu"** adlanan ikinci paraqrafında qərb musiqi alətlərinin, texnoloji yeniliklərin – patefon və valların məişətə daxil olması, musiqidə yeni üslubi meyillərin meydana gəlməsindən bəhs olunur. Qeyd edək ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində qarmon, piano, klarnet, skripka, kontrabas, violançel kimi musiqi alətlərindən istifadə mühüm yenilik idi.

XX əsrin əvvəllərində Ü.Hacıbəyli ənənəvi xalq musiqi sənəti ilə bəstəkar yaradıcılığının vəhdətini yaratmaqla Şərq və Qərb musiqi mədəniyyətinin qarşılıqlı təsirini yüksək səviyyədə təqdim etdi. "*Qeyd edək ki, Avropa musiqisinin təsiri nə qədər güclü olsa da, xalqın öz musiqi mədəniyyətində milli mahnılara, el nağmələrinə, aşıq havalarına və muğamlara olan tələbatı digər janrları üstələyirdi*"[62].

Dissertasiya işinin **"Nəticə"** hissəsində ümumiləşdirmələr aparılmış və tədqiqata yekun vurulmuşdur.

Tədqiqat göstərmişdir ki, Orta əsrlərdə Avropa, əsasən, Şərq mədəniyyətinin təsiri altında inkişaf etmişdisə, XIX əsrdən etibarən bu proses əksinə cərəyan etməyə başlamışdır. Avropa mədəniyyətinin Azərbaycan xalqının məişət və mədəniyyətinə təsiri prosesi XIX – XX əsrlərdə daha sürətlə baş vermişdir.

---

[61] Əsədova, Q. Azərbaycan məişətində qadın əməyinin tətbiqinə dair(XIX- XX əsrlərdə// – Bakı: Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası – 2023. C. 71, №2, – s. 48-56.

[62] Асадова, Г.О характере влияния Европейской музыкальной культуры конца XX – начала XX веков на национальную музыкальную культуру Азербайджана // Ужгород: Науковий вісник Ужгородського Нацıоналного Унıверситету Серия Мıжнароднı Вıдносини, №5, - 2019, с.78.

*“Knitin “Şamaxı bazarı” adlı rəsm əsərinin tədqiqi göstərmişdir ki, Milli Azərbaycan Tarixi Muzeyi mövcud olduğu bütün dövrlərdə Azərbaycan xalqının maddi-mədəni irsini nəinki toplamış, qorumuş və öyrənmiş, eyni zamanda yazılı məlumatları əhaliyə sadə, anlaşılan səviyyədə, əyanı şəkildə nümayiş etdirmək üçün avropalı rəssamlarla əməkdaşlıq etmişdir”*[63].

Muzeyin fondlarında saxlanılan, mövzu ilə əlaqədar inventarlar araşdırılarkən müşahidə olunmuşdur ki, idxal olunan məhsullar üzərindəki bəzəklər, adətən, oxşar xarakter daşımışdır. Flora-fauna tipli bəzəklər, mələk motivləri və madonna tipli dekorasiyalar tekstil məhsulları (şallar, süfrələr və s.) ilə yanaşı, metal məmulatların, o cümlədən, çini və şüşə qabların da bəzəklərində əsas leytmotivdir. Memar və ustalar bu üslubu hətta eksteryerlərin də bəzədilməsində, öz bina və layihələrində realizə etmişlər.

XIX əsrin sonu – XX əsrin əvvəllərindən etibarən cəmiyyətdə ictimai, iqtisadi və mədəni dəyişikliklər maddi mədəniyyətin digər sahələri kimi, geyim mədəniyyətinə də ciddi şəkildə təsir göstərmişdir. Avropa mədəniyyəti ilə tanışlıq nəticəsində xalqın ənənəvi geyimləri yeni tipli geyimlərlə əvəz olunmağa başlamışdır. Bu yeniliklər özünü həm kişi və qadın geyimlərində, həm də uşaq geyimlərində göstərirdi.

MATM-ın Arxeologiya və Etnoqrafiya fondlarında qorunan materiallar Azərbaycanda ənənəvi süfrə mədəniyyətinə Avropa mədəniyyətinin təsirini izləməyə imkan vermişdir. Fondlardakı yüzlərlə qab nümunələri tədqiq olunmuş, təsnifləndirilmişdir: 1. Təsərrüfat qabları; 2. Süfrə qabları; 3. Dekor və suvenir tipli qablar. Həmçinin qablar materiallarına görə: a) çini; b) metal; c) şüşə olmaqla qruplaşdırılmışdır. Muzeyin fondlarında qorunan “Meysen”, “Veysen”, “İmperator”, “Qardner” “Kuznetsov”, “Bataşev”, “Şemarin qardaşları” “Metador” markalı məmulatlar Azərbaycan-Avropa mədəni-ticarət əlaqələrinin ardıcıllığını təsdiqləyir.

---

[63] Əsədova, Q. Şamaxı Orta Əsrlərdə şərqlə-qərb iqtisadi-ticarət əlaqələrinin mühüm məntəqələrindən biri kimi – MATM-ın materialları əsasında: [Elektron resurs] / Müasir Azərbaycandan tarixi Şirvanşahlar dövlətinə səyahət beynəlxalq elmi konfransının materialları. – Bakı, 23-24 oktyabr 2018. –s.699-707. -S.700 -Url: http://hdl.handle.net/20.500.12323/3905

XIX əsrin sonları – XX əsrin əvvəllərində parça istehsalı, xalçaçılıq, ipəkçilik kimi bir çox ənənəvi kustar istehsal sahələrində texnologiyalardan istifadə onları sənayeləşdirir, bu proseslə ayaqlaşa bilməyən boyaqçılıq kimi sənətlər isə istehsalın yeni üsullarının təsiri nəticəsində istehlak bazarından tədricən sıxışdırılıb çıxarılırdı.

Muzeyin fondlarında aşkara çıxarılmış faktiki artefaktlar sayəsində nəzəriyyə şəklində olan biliklərə əyanilik gətirilmişdir. F.Şuşinskinin "Sport record" və başqa səsyazma müəssisələrində Azərbaycan müğənnilərinin vallar yazdırması fikri Muzeydə bu şirkətə aid olan valların aşkara çıxarılması ilə öz təsdiqini tapmışdır. "*M.Süleymanovun "Blestyaşşi" mağazası barədə fikirlərini Etnoqrafiya fondunda saxlanan venzelli qablar təsdiq edir. Bu qablara istehsal olunduqları firmanın markası ilə yanaşı, "Blestyaşşi" mağazasının yarlığının yazılması yerli sahibkarların istehsalçılarla birbaşa əlaqə saxladıqlarını sübut etmişdir"*[64].

Tədqiqatla o da məlum olmuşdur ki, Azərbaycana nüfuz edən Avropa mədəniyyəti yerli əhalinin ənənəvi məişət və mədəniyyətinə yenilikçi-dəyişdirici təsir göstərsə də, milli-mədəni ənənələrini sıxışdırıb aradan çıxara bilməmişdir.

**Dissertasiyanın əsas müddəaları aşağıdakı məqalə və konfrans materiallarında öz əksini tapmışdır:**

1. Avropa mədəniyyətinin Azərbaycanda xalçalılıq sənətinə təsirinə dair (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi-2014, – 2014. – 379- 387.
2. XIX əsrin sonu - XX əsrin əvvəllərində Avropa mədəniyyətinin azərbaycanlıların geyim tərzinə təsiri // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, – 2015. №1, – s. 94- 103.

[64] Əsədova Q. Porcelain pots in the lives of azerbaijanis and directions of their importes (on the basis of materials of the "ethnography" foundation of the National Museum of History of Azerbaijan: [Elektron resurs] / Karabagh international congress of modern studies in social and human sciences / Karabagh, Azerbaijan Institute of the Caucasus Studies/ Azerbaijan National Academy of Sciences, -Bakı: - June 17-19, 2021. s-116-123 –S. 119 - Url: https://abd0745e-1147-4a94-8a87-ebfb17dfbfe0.filesusr.com/ugd/614b1f_33069872e61a41e2b891c5cd5d6384e4.pdf

3. L.F. Knitin “Şamaxı bazarı” təsviri sənət əsərinin tarixi–etnoqrafik baxımından təhlili // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi-2015, – 2015. – s.359- 364
4. О характере влияния Европейской музыкальной культуры конца XX - начала XX веков на национальную музыкальную культуру Азербайджана // Ужгород: Науковий вiсник Ужгородського Нацiоналного Унiверситету Серия Мiжнароднi Вiдносини, №5, -2019. - с. 72-80.
5. Azərbaycan məişətində qadın əməyinin tətbiqinə dair(XIX- XX əsrlərdə// – Bakı: Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji- psixoloji elmlər seriyası – 2023. C. 71, №2, – s. 48-56.
6. Şamaxı Orta Əsrlərdə şərqlə-qərb iqtisadi-ticarət əlaqələrinin mühüm məntəqələrindən biri kimi – MATM-ın materialları əsasında: [Elektron resurs] / Müasir Azərbaycandan tarixi Şirvanşahlar dövlətinə səyahət beynəlxalq elmi konfransının materialları. – Bakı, 23-24 oktyabr 2018. –s.699-707.
7. “Endüstride kimyasal boyaların üretiminin Azerbaycan'da boyama sanatına etkisi üzerine” 15. Uluslararası Türk Kültürü, Sanatı ve Kültürel Mirası Koruma çevrimiçi Sempozyumu/Sanat etkinlikleri- Aydın, Adnan Menderes Üniversitesi 12-13-14 nisan 2021. –s. 323- 324.
8. XIX – XX yüzyılda Rusyanın göç politikası sonucu almanların, ermenilerin ve rusların Azerbaycanda yerleşdirilmesine dair // İnternational Gobeklitepe Social Sciences & Humanity Congress II, - Şanlıurfa: – 6-8 may, 2021. –s.528-532
9. Porcelain pots in the lives of azerbaijanis and directions of their importes (on the basis of materials of the “ethnography” foundation of the National Museum of History of Azerbaijan: [Elektron resurs] / Karabagh international congress of modern studies in social and human sciences / Karabagh, Azerbaijan Institute of the Caucasus Studies/ Azerbaijan National Academy of Sciences, -Bakı: - June 17-19, 2021. s-116-123

Dissertasiyanın müdafiəsi 05 dekabr 2024-cü il tarixində saat 13[00]-da Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1073, Bakı şəhəri, Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun internet saytında yerləşdirilmişdir.

Avtoreferat 04 noyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 30.10.2024
Kağızın formatı: A5
Həcm: 45848
Tiraj:100